**“Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyi haqqında Əsasnamə”yə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

“Siyasi partiyalar haqqında” Azərbaycan Respublikası Qanununun 21.2-ci və 21.6-cı maddələrinə görə siyasi partiyalar tərəfindən illik maliyyə hesabatları auditor rəyi ilə birlikdə hər il aprel ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilir və hesabatları Komissiya öz rəsmi internet səhifəsində yerləşdirir.

Həmin fəaliyyətin həyata keçirilməsi məqsədilə Mərkəzi Seçki Komissiyası Katibliyinin strukturunda müvafiq dəyişikliklər edilmişdir. Bununla əlaqədar “Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyi haqqında Əsasnamə”də dəyişikliklərin edilməsi zərurəti yaranmışdır.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 28.5-ci maddələrini rəhbər tutaraq **q ə r a r a  a l ı r :**

**1.** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 24 fevral 2012-ci il tarixli 1/4 saylı Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyi haqqında Əsasnamə”yə aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 2.1.10-cu yarımbəndə aşağıdakı məzmunda abzas əlavə edilsin:

„2.1.10.1. siyasi partiyaların illik maliyyə hesabatlarının qəbul edilməsini, nəzərdən keçirilməsini, ümumiləşdirilməsini və ictimailəşdirilməsini təmin edir;“

**1.2.** 3.2.5-ci və 3.2.9-cu yarımbəndlərə aşağıdakı məzmunda abzaslar əlavə edilsin:

“3.2.5.2. Siyasi partiyaların sənədləri ilə iş sektoru;

3.2.9.1. Siyasi partiyaların maliyyə hesabatları üzrə iş sektoru”;

**1.3.** 3.2.5.1.-ci abzasdakı və 4.13-cü bənddəki „Sənədlərlə iş sektoru“ sözləri „Kargüzarlıq sektoru“ sözləri ilə əvəz edilsin.

**1.4.** 4-cü hissəyə aşağıdakı məzmunda bənd və yarımbəndlər əlavə edilsin:

“4.14. Siyasi partiyaların sənədləri ilə iş sektoru;

4.14.1. siyasi partiyalar tərəfindən Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş sənədlərin kargüzarlığın aparılmasına dair tələblərə uyğunluğunu yoxlayır.

4.20. Siyasi partiyaların maliyyə hesabatları üzrə iş sektoru;

4.20.1. siyasi partiyaların illik maliyyə hesabatlarını qəbul edir, nəzərdən keçirir, ümumiləşdirir və ictimailəşdirir“.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr — Məzahir Pənahov

Katib — Arifə Muxtarova

Katib — Mikayı Rəhimov